**Azərbaycan – Kolumbiya münasibətləri**

***<u>Qısa tarixi məlumat:</u>***

Azərbaycan və Kolumbiya Respublikaları arasında diplomatik münasibətlər 13 sentyabr 1994-cü ildə qurulmuşdur. Hal-hazırda Azərbaycan Respublikasının Meksikadakı səfiri İlqar Muxtarov eyni zamanda Kolumbiyada akkreditə edilmişdir. Səfir İlqar Muxtarov 30 avqust 2011-ci ildə etimadnaməsini Kolumbiya Respublikasının Prezidenti Xuan Manuel Santosa təqdim etmişdir.

***<u>Yüksək səviyyəli qarşılıqlı səfərlər:</u>***

**<u>Nazirlər:</u>**

**24-26 iyul 2012-ci ildə** AR **x**arici işlər naziri Elmar Məmmədyarovun rəhbərlik etdiyi nümayəndə heyəti Kolumbiya Respublikasına səfər etmişdir.

**8 iyul 2013-cü ildə** Kolumbiyanın xarici işlər naziri Maria Anxela Olqin Kueyarın rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycana səfər etmişdir.

***<u>Parlamentlərarası əlaqələr:</u>***

***Azərbaycan Respublikası Milli Məclisində Azərbaycan-Kolumbiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun tərkibi:***

Xanlar Fətiyev - *qrupun rəhbəri*, Aydın Abbasov, Rauf Əliyev, Çingiz Əsədullayev, Əliağa Hüseynov, Sahibə Qafarova, Ülvi Quliyev, Asim Mollazadə, Fazil Mustafa.

**28 mart 2012-ci ildə** Kolumbiya Senatının II konstitusional daimi komitəsinin sədri senator Alexandra Moreno Pirakive tərəfindən irəli sürülmüş "Azərbaycan Respublikası ərazisinin qanunsuz işğal edilməsi" barədə qərar Senatın II konstitusional daimi komitəsində səsverməyə qoyulmuş və komitə üzvləri tərəfindən qəbul edilmişdir. Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğal edilməsi faktının öz əksini tapdığı və Xocalı faciəsinin məhz soyqırımı aktı kimi tanıyan qərar 28 mart tarixində təsdiq (ratifikasiya) edilməsi üçün daha sonra 102 senatorun iştirakı ilə Senatın plenar sessiyasına təqdim edilmiş və yekdilliklə qəbul edilmişdir.

**30 iyun – 5 iyul 2012-ci ildə** Kolumbiya senatoru Alexandra Moreno Pirakivenin rəhbərlik etdiyi parlament nümayəndə heyəti Azərbaycan Respublikası Milli Məclisinin

dəvətinə əsasən Azərbaycanda səfərdə olmuşdur.

**28 mart 2013-cü ildə** Kolumbiya Konqresinin Nümayəndələr Palatasının sədri Hernan Penaqos Xoraldo tərəfindən irəli sürülmüş təklifə əsasən "Ermənistan-Azərbaycan münaqişəsi" haqqında müvafiq sənəd qəbul edilmişdir. Azərbaycanın Ermənistan tərəfindən təcavüzə məruz qaldığı, BMT TŞ-nın müvafiq 4 qətnaməsinin indiyədək yerinə yetirilmədiyi qeyd edilən sənəddə, həmçinin Xocalıda baş vermiş soyqırımı qətiyyətlə pislənmişdir.

***Sahələr üzrə əməkdaşlıq:***

**Siyasi sahədə:**

**20 sentyabr 2011-ci ildə** Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov və Kolumbiya Respublikasının xarici işlər naziri Maria Anxela Olqin (Maria Angela Holguin) Nyu-Yorkda, BMT Baş Assambleyasının 66-cı sessiyası çərçivəsində görüşmüşlər.

**13-16 oktyabr 2011-ci ildə** Kolumbiya xarici işlər nazirinin müavini Patti Londonyo Xaramiyo, xarici ticarət və turizm nazirinin müavini Qabriel Düke, infrastruktur nazirinin müavini Konstanza Qarsiya və Kolumbiya XİN-in Avropa idarəsinin rəisi Alfonso Soriya Mendozanın daxil olduğu nümayəndə heyəti ölkəmizdə səfərdə olmuşlar.

**18-20 fevral 2012-ci ildə** Meksikanın Los Kabos səhərində "Böyük İyirmilik" ölkələrinin xarici işlər nazirlərinin qeyri-rəsmi toplantısı çərçivəsində Azərbaycan Xarici İşlər Naziri E.Məmmədyarov Kolumbiyanın xarici işlər naziri M.A.Olqinlə görüşmüşdür.

**24-26 iyul 2012-ci ildə** xarici işlər naziri Elmar Məmmədyarovun rəhbərlik etdiyi nümayəndə heyəti Kolumbiya Respublikasına səfər etmişdir. Səfər çərçivəsində Azərbaycan və Kolumbiyanın XİN-ləri arasında siyasi məsləhətləşmələrin I toplantısı keçirilmiş, habelə nazir E.Məmmədyarov Kolumbiyanın xarici işlər naziri Maria Anxela Olqin Kueyar, mədən və enerji naziri Maurisio Kardenas, Senatın sədr müavini Edqar Espindola Ninyonun başçılıq etdiyi senatorlardan ibarət parlament qrupu və Kolumbiya Futbol Federasiyasının prezidenti Luis Bedoya ilə görüşmüşdür.

**28 sentyabr 2012-ci ildə** Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov və Kolumbiya Respublikasının xarici işlər naziri Maria Anxela Olqin Kueyar arasında Nyu-York səhərində BMT Baş Assambleyasının 67-ci sessiyası zamanı ikitərəfli görüş keçirilmişdir.

**30 sentyabr - 2 oktyabr 2012-ci ildə** Azərbaycan və Kolumbiyanın XİN-ləri arasında siyasi məsləhətləşmələrin II toplantısının keçirilməsi məqsədi ilə Kolumbiya xarici işlər nazirinin müavini Monika Lanzettanın rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycana səfər etmişdir.

**8 iyul 2013-cü ildə** Kolumbiyanın xarici işlər naziri Maria Anxela Olqin Kueyarın rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycan Respublikasında səfərdə olmuşdur. Səfər çərçivəsində Nazir M.A.Olqin Kueyar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən qəbul edilmiş, habelə xarici işlər naziri E.Məmmədyarov, iqtisadi inkişaf naziri Ş.Mustafayev, AZPROMO-nun prezidenti, Heydər Əliyev Mərkəzinin direktorunun birinci müavini ilə görüşlər keçirmişdir. Səfər çərçivəsində Azərbaycan və Kolumbiyanın XİN-ləri arasında siyasi məsləhətləşmələr keçirilmişdir.

**25 sentyabr 2013-cü ildə** Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov və Kolumbiya Respublikasının xarici işlər naziri Maria Anxela Olqin Kueyar arasında Nyu-York şəhərində BMT Baş Assambleyasının 68-ci sessiyası zamanı ikitərəfli görüş keçirilmişdir.

**Humanitar sahədə:**

• **15 oktyabr 2011-ci ildə** Kolumbiyanın xarici işlər nazirinin müavini, xarici ticarət və turizm nazirinin müavini, infrastruktur nazirinin müavinindən ibarət nümayəndə heyətinin Bakıya səfəri zamanı Səməd Vurğun adına Rus Dram teatrında Kolumbiyanın məşhur “El Colegio del Cuerpo” rəqs qrupunun çıxışı təşkil edilmişdir.
• **27 sentyabr 2012-ci ildə** Kolumbiya Diplomatik Akademiyasının rektoru Maria Tevesa Aya Azərbaycan Diplomatik Akademiyası tərəfindən təşkil edilmiş 40-cı “Diplomatik Akademiyaların Ümumdünya Forumu”nda iştirak etmək üçün Azərbaycanda səfərdə olmuşdur.
• **1 oktyabr 2012-ci ildə** Azərbaycan və Kolumbiyanın XİN-ləri arasında Siyasi Məsləhətləşmələrin II toplantısının keçirilməsi məqsədi ilə Kolumbiya xarici işlər nazirinin müavini Monika Lanzettanın rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycanda səfəri çərçivəsində Səməd Vurğun adına Rus Dram teatrının səhnəsində Kolumbiyanın incəsənət xadimlərindən ibarət “Swing Latino” salsa qrupu çıxış etmişdir.
• **20 noyabr - 3 dekabr 2012-ci ildə** Azərbaycan gənclərinin beynəlxalq əməkdaşlıq əlaqələrinin genişləndirilməsi məqsədi ilə AR Gənclər və İdman Nazirliyi tərəfindən Latın Amerikası ölkələrini təmsil edən gənclərin iştirakı ilə gənclər forumu keçirilmişdir. Sözügedən forumda Kolumbiyanı təmsil edən gənclərdən ibarət geniş nümayəndə heyəti Azərbaycanda səfərdə olmuş və forumun işində iştirak etmişdir.

• **26 aprel - 01 may 2013-cü ildə** Heydər Əliyev Fondunu təmsil edən rəsmi nümayəndə heyəti Kolumbiyada işgüzar səfərdə olmuşdur. Səfər çərçivəsində Heydər

Əliyev Fondunun nümayəndə heyəti Kolumbiyanın Uşaqlara qarşı zorakılıqların qarşısının alınması üzrə Şəbəkə Fondunun prezidenti, Kolumbiya Senatının üzvü Alexandra Moreno Pirakive ilə görüşmüşdür. Görüş zamanı Heydər Əliyev Fondu və Kolumbiyanın Uşaqlara qarsı zorakılıqların qarşısının alınması üzrə Şəbəkə Fondu arasında əməkdaşlıq haqqında Saziş imzalanmışdır.

• **14 may 2012-ci ildə** Səməd Vurğun adına Rus Dram Teatrının səhnəsində Kolumbiyanın “Fundacion del Rio” incəsənət kollektivinin “Hecho en Cali” rəqs qrupunun konserti keçirilmişdir.

***Müqavilə-hüquq bazası:***

**İki ölkə arasında 5 sənəd imzalanmışdır.**

***Son yenilənmə tarixi: 25.10.2013***